BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2010

# ŞİMALİ AZƏRBAYCANDA 1870-ci İL KƏNDLİ İSLAHATINDAN SONRA TORPAQ SAHİBLİYİ VƏ TORPAĞIN İCARƏ EDİLMƏSİ HAQQINDA

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*Məqalədə Şimali Azərbaycanda 1870-ci il kəndli islahatından sonra sahibkar kəndli torpaq sahibliyi və torpaq icarə edilməsi formalarından və şərtlərindən danışılır. Göstərilir ki, çarizmin Şimali Azərbaycanda sahibkar kəndlilərin şəxsi asılılıqdan azad edilməsi gedişində ali müsəlman silkinin maraqlarına mümkün qədər az zərər dəyməsinə çalışması səbəbindən bütövlükdə kəndli asılı münasibətlərində ciddi problemlər yenə də qalmaqda davam edirdi. Kəndlilərin islahatdan sonrakı ağır vəziyyətinin əsas səbəbləri kimi onların aztorpaqlılığı və kəsiklər probleminin meydana gəlməsi hesab edilir. Bildirilir ki, Kəndli Əsasnaməsinin sahibkar kəndlilərə ödənc yolu ilə pay torpaqlarını satın alıb torpaq mülkiyyətçisinə çevrilməsinə imkan yaratdığı halda, bu, baş vermədi.*

1870-ci il 14 may kəndli Əsasnaməsi ali müsəlman silkin nümayəndələrinin mülklərində yaşayan sahibkar kəndlilərin vəziyyətində mühüm dönüş nöqtəsi olduğuna baxmayaraq, problemlə bağlı bir çox hüquqi, fiziki şərtlər və yerli şərait və s. məsələlərlə bağlı çətinliklərin qalması islahatdan sonrakı bir neçə onillikdə də bu məsələ haqqında müxtəlif səviyyələrdə müzakirələrin davam etməsi və habelə, sahibkar kəndlilərin uzun müddət müvəqqəti mükəlləfiyyətli vəziyyəti adlanan şəraitdə yaşamasına səbəb oldu. Doğrudur, çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda sahibkar kəndlilərin şəxsi asılılıqdan azad edilməsi gedişində ali müsəlman silkinin maraqlarına mümkün qədər az zərər dəyməsinə çalışması, formal olaraq, Əsasnaməyə əlavə kimi 1870-1877-ci illərdə daha bir neçə əlavə əmr və sərəncamların yaranması ilə nəticələnsə də (13, 189-192), bütövlükdə kəndli asılı münasibətlərində ciddi problemlər yenə də qalmaqda davam edirdi.

Əslində Şimali Azərbaycanda sahibkar kəndlilərinin azad edilməsi prosesi imperiyanın digər ərazilərində mülkədarlar üçün bu qədər əlverişli, kəndlilər üçünsə, bunun əksinə olaraq, bir sıra məhdudiyyətlərlə müşahidə edilməmişdi. Pay torpaqlarından geri alınan «kəsiklər» probleminin yaranması çox dərəcədə Cənubi Qafqazda hökümət tərəfindən suvarılan torpaqlarda bir tüstü üçün maksimum həddin 5 desyatinə qədər müəyyən edilməsi ilə bağlı idi (13, 180).

Məhz kəsiklər probleminin Kəndli Əsasnaməsində mülkədarların maraqlarına uyğun şəkildə müəyyən edilməsi islahatın həyata keçirilməsinə başladıqdan sonra kəndlilərin istifadəsində qalan pay torpaqlarının ümumi həcminin xeyli azalmasına gətirib çıxardı. İslahatdan sonra Cənubi Qafqazın 5 quberniyasında kəndlilərin istifadəsində qalan torpaq sahəsinin ümumi həcmi 877 377 desyatin, mülkədarların mülkiyyətində saxlanılan torpaqlar 2 522 650 desyatin idi (10, 5-6). Bu isə o demək

idi ki, mülkədar torpaqlarının ümumi həcmi kəndli pay torpaqlarından təxminən 2,9 dəfə çox idi (6, 12-14). Müsəlman əhalisinin məskunlaşdığı 3 quberniyada bu nisbət bir qədər fərqli idi. Məsələn, Bakı quberniyasında bu rəqəm müvafiq olaraq, 110 315 və 246 904; Yelizavetpol quberniyasında 124 314 və 440 798; İrəvan quberniyasında 98 264 və 60 126 desyatin idi (10, 5). Bu rəqəmlərdən aydın göründüyü kimi, mülkədarların mülkiyyətində ən çox torpaq sahəsi qalan quberniya İrəvan, ən az torpaq sahəsinin qaldığı ərazi isə Bakı quberniyası idi. Bu isə torpaq sahələrinin münbitlik dərəcəsindən, kəndli pay torpaqları daxilində qalan torpaqların meyvə bağları, üzümlük, tut ağacları sahələri və s. ibarət olub - olmaması və digər amillərlə əlaqədar idi. Yerlərdə bir tüstü hesabı ilə müsəlman əhalisi yaşayan Cənubi Qafqaz quberniyalarında pay torpaqları təxminən 3 desyatinə yaxın idisə, təsərrüfat daxilində ailədə yaşayan kişilərin hər birinə düşən hədd orta hesabla 0,73 desyatinə bərabər idi (15, 59-60).

Şimali Azərbaycanda yaşayan sahibkar kəndlilər müvəqqəti mükəlləfiyyətli vəziyyət dövründə istifadə etdikləri pay torpaqları əvəzində müxtəlif mükəlləfiyyətlər yerinə yetirir, ən çox isə pul vergisi ödəməli olurdular. Bakı və Yelizavetpol quberniyalarında kəndlilər istifadə etdikləri hər desyatin malikanə sahəsi üçün 30 qəpik pul vergisi ödəyirdilər (18, 6).

Sahibkar kəndlilərinin pay torpaqlarından istifadə əsasında pul vergisi ödəməyə keçid birdən birə-baş verməmişdi. Məsələn, İrəvan quberniyası kəndliləri hətta islahatdan müəyyən qədər sonra məhsulun 3/10-nə qədərini vergi formasında ödəməli olurdular (3, vər. 12). Çar hökuməti bu vəziyyətin yaratdığı bir sıra çətinlikləri və digər amilləri əsas götürərək Kəndli Əsasnaməsində suvarılan torpaq və bağ sahələrində asılı kəndlilərin qanunvericiliyə uyğun şəkildə mükəlləfiyyətlərdən pul rentasına keçirilməsinin zəruriliyi haqqında birbaşa göstəriş vermişdi.

1870-ci il 14 may Əsasnaməsinin qəbulundan sonra sahibkar kəndlilərin pay torpaqlarının əksər vaxtlarda 1 desyatindən bir qədər az və ya çox hüdudlarında olması, digər tərəfdən, mövcud kənd təsərrüfatı alətlərinin primitivliyi və əkinçilik mədəniyyətinin ənənəvi aşağı səviyyəsi, ən nəhayət, pay torpaq sahələrinin real həcminə təbii əhali artımı səbəbindən adam başına düşən hissəsinin get-gedə azalması üzündən onların pay torpaqlarından başqa əlavə icarə torpaqlarından istifadə etməsi hallarını artırırdı (14, 3-60). XIX əsrin 80-cı illərinin sonundan başlayaraq sahibkar kəndliləri içərisində belə icarədarların sayı onların təxminən 1/3-ni təşkil edirdi. Əsrin əvvəllərində bu rəqəm təxminən 2 dəfə artmışdı (9, vər. 53-54).

Beləliklə, ilbəil torpaq icarədarlarının sayının artması icarə qiymətlərinin də müvafiq olaraq yüksəlməsinə səbəb olurdu. XX əsrin əvvəllərində Cənubi Qafqazın müsəlman əhalisi yaşayan 3 quberniyasında kəndlilərdən alınan icarə haqqı 10 il ərzində təxminən 2 dəfə artmışdı (10, 9).

Müəyyən qədər qəribə olsa da, Bakı və Yelizavetpol quberniyalarında bəzi yerlərdə torpaq icarə haqqı məhsulla da ödənirdi.

Torpaq icarə qaydalarında hakim forma qısamüddətli və kiçik həcmli torpaqların icarəsi idi.

Məsələn, Bakı və Yelizavetpol quberniyalarında torpaq icarə haqqı illik məhsulun 2/4-dən 4/10-nə qədər hüdudlarında dəyişirdi və kəndli təsərrüfatlarının məhsulunun böyük hissəsinin əldən çıxmasına səbəb olurdu (10, 19).

Şimali Azərbaycanda sahibkar kəndlilərin pay torpaqları satın almaları üçün

tələb edilən ödənc qiymətlərinin həddən artıq yüksək olduğu bir vəziyyətdə torpaq icarə haqlarının artması əslində təbii idi.

İslahatdan sonrakı Şimali Azərbaycan sahibkar kəndində kəndlilərin vəziyyətini müəyyən edən şərtlərdən biri də ödəmə əməliyyatına münasibət və bu əməliyyatın reallaşma dərəcəsi idi.

Ödənc prosesi Şimali Azərbaycanın sahibkar kəndlilərin maddi vəziyyətinin ağırlaşmasından başqa, bəzi digər amillərlə də əlaqədar, demək olar qeyri – müəyyənlik vəziyyətində idi. Bir çox illər ərzində kəndlilərin öz keçmiş sahibkarları ilə ödənc müqavilələri bağlaması halları son dərəcə az idi. Ödənc prosesini çətinləşdirən hallar içərisində Kəndli Əsasnaməsinin ödənc əməliyyatlarının həyata keçirilməsi zamanı Rusiya quberniyalarından fərli olaraq Cənubi Qafqazda mülkədarların maraqlarına xidmət edən bəzi məqamları nəzərdə tutması idi (1, vər.66-67).

Əsasnaməyə əsasən, kəndli pay torpaqlarının satın alınması haqqında ödənc müqaviləsi tərəflərin razılığı əsasında tərtib edilməli idi. Məhz ödənc müqavilələrin tərtibi və bu zaman ödənc prosesi ilə bağlı digər normativ sənədlərin hazırlanması Şimali Azərbaycanın sahibkar kəndində mülkədar – kəndli münasibətlərində qeyri-bərabərliyi və tərəflərin birinin maraqlarının təmin edilməsi naminə digərinin vəziyyətinin həddən artıq pisləşməsini aşkar və bütün incəliklərinə qədər müşahidə etmək mümkündür.

Rəsmən 1870-ci il 14 may Əsasnamənin ardınca 1877-ci il 3 sentyabr, 1877-ci il 10 yanvar, 1883-cü il 15 mart tarixli fərmanlarla Cənubi Qafqazın üç quberniyasında bütün asılı münasibətlərin axıradək öz həllinin tapmasına nail olmağa cəhdlər edilsə də (13, 222-229), sahibkar kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyətinin tamamilə aradan qaldırılması yarım əsrdən bir qədər çox vaxt keçəndən sonra, 1912-1913-cü illərdə yeni aqrar qanunların qəbul edilməsindən mümkün oldu (1-vər.64 ).

Rusiyanın özündə 1881-ci il 28 dekabr tarixli qanunla mülkədar kəndlilərinin torpaq paylarını məcbur satın almaları qaydasının tətbiq edilməsinə baxmayaraq (10, 14), müstəmləkə hökuməti Cənubi Qafqazda eyni addımı atmağa tələsmirdi. Hətta birinci rus inqilabının təsiri ilə Rusiyanın daxili quberniyalarında kəndlilər 1906-cı ilin yanvarın 1-dən ödənc faizlərini ödəməkdən azad edildiyi halda (10, 16), Cənubi Qafqazın yeni sahibi canişin qraf Vorontsov-Daşkov o qədər də tələsmədən burada sahibkar kəndlilərin məcburi ödənc münasibətlərinə keçirilməsi yollarının qanunvericilik vasitəsilə nizamlamasına çalışırdı. Cənubi Qafqazda sahibkar kəndlilərin 1918-1920-ci illərə qədər ağır ödənc faizləri ödəmələri sahibkar kəndində ağır qarşıdurma vəziyyətindən və çarizmin ziddiyyətli aqrar – müstəmləkə siyasətindən xəbər verirdi (4, vər. 50).

XX əsrin əvvəllərində Şimali Azərbaycanda 1168386 desyatin mülkədar torpaqları, 43.1 min desyatin satın alınmış pay torpaqları mövcud idi. Təxminən 1 milyon desyatinə yaxın torpaq sahəsi ağır şərtlərlə kəndlilərin istifadə etdlikləri pay torpaq torpaqları olsa da, rəsmən mülkədarların mülkiyyətində qalırdı (17, 36).

XIX əsrin sonunda Şimali Azərbaycanda 1.115 000 desyatin mülkədar torpaq sahibliyindən 687.700 desyatini mülkədarların öz istifadəsində, 427 500 min desyatini isə kəndlilərin pay torpağı şəklində mövcud idi. Bu rəqəm 1870-ci il 14 may Kəndli Əsasnaməsində nəzərdə tutulduğu kimi mülkədarların mülkiyyətində qalmalı olan 1/3 miqdardan xeyli çox olaraq, təxminən kəndli pay torpaqlarından 50% çox idi (17, 38).

Digər tərəfdən mülkədarların istifadəlikdə qalan torpaqları kəndli pay torpaqları ilə müqayisədə daha məhsuldar idi.

XIX əsrin sonlarında kəndli torpaq sahibliyinin formalaşmasına mane olan amillər sırasına pay torpaqlarının sərhədlərinin hələ də tam dəqiqləşdirilməməsi, ödənc müqavilələrinin bağlanmasındakı süründürməçilik və digər çətinliklər və s. daxil idi. Bütün bunlar isə öz növbəsində sahibkar kəndliləri ilə müxtəlif hökumət instansiyaları arasında illərlə davam edən lüzumsüz yazışmalara və araşdırmalara gətirib çıxarırdı (7, vər. 6, 11, 19).

İslahatdan sonra Şimali Azərbaycan sahibkar kəndində kəndli torpaq sahibliyinin formalaşması ilə bağlı olan amillər sırasında kəndlilərin təbəqələşməsi prosesinin sürətlənməsinin nəticələrini də göstərmək lazımdır. Həm icma torpaqlarının ələ keçirilməsi, həm də kəndlilərin müflisləşməsi prosesinin artması hesabına öz əlində heç də mülkədarların torpaqlarından az olmayan həcmdə torpaq mülkləri cəmləşdirən varlı kəndlilərin sayının artması da bu sahədə yeniliklərdən biri idi (8, vər. 1-2).

Cənubi Qafqazın müsəlman əhalisi tərəfindən məskunlaşdırılmış üç quberniyanın əksər qəzalarında sahibkar kəndlilərinin böyük əksəriyyətinin Kəndli Əsasnaməsinin müəyyən etdiyi 5 desyatin ümumi həddən xeyli aşağı həcmdə pay torpaqlarına malik olması və ya istifadə etməsi fakt idi. Bakı və Yelizavetpol quberniyalarının əksər kəndlərində kəndlilərin böyük əksəriyyəti 1-1,2 desyatinlə 2 desyatin arasında pay torpaqlarından istifadə edirdilər (2, vər.36-37). Yelizavetpol quberniyasının bir çox kəndlərində isə kəndli pay torpaqlarının faktik həcmi heç bir desyatin həddinə də çatmırdı (12, 12). Bu vəziyyət Kəndli Əsasnaməsinin qəbulundan sonra kəndlilərlə onların keçmiş sahibkarları arasında imzalanan ödənc müqavilələrinin tərtibi zamanı da aydın olurdu.

Şimali Azərbaycanın sahibkar kəndində kəndlilərin az torpaqlı və ya demək olar ki, torpaqsız vəziyyətdə yaşaması quberniyalar üzrə illik hesabatlarda, yüksək rütbəli məmurların məlumat və raportlarında, müxtəlif təftiş materiallarında öz əksini tapırdı (11, 440-442).

Hökumət məmurlarının hesabatları və rəsmi statistik materialların təhlilindən sonra aydın olur ki, kəndli pay torpaqlarının faktik həcminin azalmasında rol oynamış faktorlar sırasına XX əsrin əvvəllərində kəndli pay torpaqlarının mülkədar və varlı kəndlilər tərəfindən özbaşına tutulması hallarının artması da daxil idi (9, vər.10).

XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda sahibkar kəndlilərinin az torpaqlı və torpaqsız olduğu bir vəziyyətdə mülkədarların torpaqlarını özləri üçün mənfəətli şərtlər əsasında icarəyə verməklə çoxlu gəlir əldə etmək imkanları artırdı. Bu zaman Kəndli Əsasnaməsində vergi və mükəlləfiyyətlərin əksəriyyətinin pul vergisi ilə ödənilməsi nəzərdə tutulduğu halda, kəndlilərin torpaq sahiblərinə icarə haqqını ödəməsinin qarışıq forması üstünlük təşkil edirdi (16, 43). Bu isə icarədar kəndlilərin nəinki az pay torpaqlarını satın almalarına şərait yaradır, əksinə sahibkar kəndində feodal - asılı kəndli münasibətlərinin islahata qədərki bir çox formalarının qalmasına və bununla da sahibkar kəndlilərin asılılığının daha da güclənməsinə gətirib çıxarırdı. Cənubi Qafqazın Yelizavetpol və Bakı quberniyalarında sahibkar kəndlilərin icarə etdikləri mülkədar torpaqlaranın həcmi bütövlükdə pay torpaqlarının həcmindən bir qədər çox olurdu.

XIX əsrin sonlarına yaxın 4 380 min desyatin mülkədar torpaq sahibliyinin 30%-dən çoxu kəndlilər tərəfindən icarə edilmişdi (10, 20). Yelizavetpol quber-

niyasının Ərəş, Nuxa qəzalarında, bu rəqəm hətta 50%-ə çatırdı. Bakı quberniyasının bəzi qəzalarında bu rəqəm hətta 50%-dən də çox idi (5, vər.18).

Şimali Azərbaycanın az torpaqlı və torpaqsız sahibkar kəndlilərinin torpaq icarə formalarını çətinləşdirərək onların bəy və ağalar, bir qədər də varlı qolçomaq kəndlilər tərəfindən ağır formada istismarını müəyyən edən səbəblər arasında icarə torpaq münasibətlərinin, demək olar ki, heç bir hüquqi sənəd və normativlərlə tənzimlənməməsi və bir çox hallarda icarədarla kəndlilərin şifahi razılaşmasına əsaslanması idi (10, 12). Bu icarədarların kəndlilər qarşısında istənilən vaxt icarə şərtlərini öz xeyrinə dəyişməsi və onlardan daha çox məhsul və pul vergisi alması ilə nəticələnirdi.

Beləliklə, 1870-ci il 14 may Kəndli Əsasnaməsinin şərtləri sahibkar kəndlilərə ödənc yolu ilə pay torpaqlarını satın alıb torpaq mülkiyyətçisinə çevrilməsinə nəzəri cəhətdən imkan yaratdığı halda, vəsaitin çatışmazlığı, çarizmin müstəmləkə siyasətini həyata keçirən rəsmi hökumət məmurlarının ödənc müqavilələrini imzalamasını və digər prosedur qaydaları süni olaraq ləngitməsi və s. digər səbəblər üzündən bu, baş vermədi. Əksinə, sahibkar kəndlilərinin istismar şərtlərini və formalarını bir qədər də genişləndirirdi.

## ƏDƏBİYYAT


1.Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi. f.2788, siy.1, iş71
2.Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi. f.1, siy.1, iş 1815.
3. Yenə orada. f.1, siy.3, iş 19.
4. Yenə orada. f.77, siy.1, iş 47.
5. Yenə orada. f.351, siy.2, iş 77.
6. Yenə orada. f.387, siy.1, iş 31.
7. Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi. f.3, siy.7, iş 25
8. Yenə orada. f.13, siy.7, iş 147.
9. Yenə orada. f.13, siy.13, iş 2539.
10. Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. Т IV. Тифлис: 1920 г., 229 с.
11. Всеподданнейший отчет о произведенной в 1905 г. по высочайшему повелению сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии. Баку: 1906, 481 с.
12.Сборник сведений о Елизаветпольской губернии. Тифлис: 1902, 21 с.
13.Сборник правительственных распоряжений и решений по устройству быта крестьян и поселян Закавказского края. Тифлис: 1886, 229 с.
14. Сведения о числе крестьян, живущих на владельческой земле в губерниях: Бакинской, Елизаветпольской и Ереванской с показанием количества десятин земли находящейся в наделе или пользовании у названных крестьян, а также размеров и виды повинностей, уплачиваемых крестьянами за эти земли. Тифлис: 1893, 241 с.
15. Свод материалов по изучении экономического быта государственных крестьян Закавказского края. Т.1, часть 2. Тифлис: 1886, 560 с.
16. Сегаль И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис: 1912, 153 с.
17. Семин О. Великая годовщина. Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказе. Исторический очерк. Киев: 1911, 164 с.
18.Обзор Бакинской губернии за 1896 года. Баку: 1897, 21 с.

## ЗАМЕТКИ О КРЕСТЬЯНСКОМ ЗЕМЛЕВЛАДЕНИИ И ОБ АРЕНДЕ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ ПОСЛЕ КРЕСТЬЯНСКОЙ РЕФОРМЫ 1870 г.

**Ф.Э. БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье указывается, что малоземелья и безземелья крестьян послужили причиной образования и расширения арендных отношений среди крестьян помещиков. В статье приводятся многие цифры и факты о положении крестьян по отдельным уездам Бакинской и Елизаветпольской губерний. Сведения о числе крестьян, живущих на владельческой земле в губерниях: Бакинской, Елизаветпольской и Ереванской с показанием количества десятин земли находящейся в наделе или пользования у названных крестьян, а также размеров и виды повинностей, уплачиваемых крестьянами за эти земли, подробно описывает условия жизни крестьян Северного Азербайджана.

## SOME FEATURES OF LAND USE OF LANDOWNING PEASANTS OF NORTHERN AZERBAIJAN AFTER THE REFORM OF 1870

**F.E.BAKHSHALIYEV**

### SUMMARY

Issues on the place and conditions of land use of landowning peasants of Northern Azerbaijan after the peasant reform of May 14, 1870 are set forth in the article. Landless and land-poor positions of landowning peasants of three provinces in Transcaucasia are described according to statistical data, information and reports of senior officials of the government of administrative staff machinery of tsarism. It is indicated that the reform dated on May 14, 1870 would provide gradual formation of land use of landowning peasants, however, it didn't happen.